**Müsabiqə haqqında**

"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu 2018-ci il 30 dekabr tarixində qəbul edilmiş və 2020-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. Qanun uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar olaraq uşaqların onlar üçün zərərli informasiyadan qorunması tədbirlərini müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Qanunun 5.3-cü maddəsində qeyd olunmuşdur ki, informasiya məhsulunun yayıcısı həmin məhsulun müstəqil şəkildə və ya ekspertin iştirakı ilə yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən ölkə ərazisində yaya bilməz. Qanunun 13.1-ci maddəsinə əsasən, yaş təsnifatının aparılması məqsədi ilə informasiya məhsulunun ekspertizası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən ixtisas attestatı almış fiziki şəxslər (ekspertlər) tərəfindən Qanunun 14-cü maddəsində müəyyən edilmiş qaydada həyata keçirilir. Şəxsə ixtisas attestatının verilməsi üçün onun işlədiyi hüquqi şəxs (ekspert təşkilatı) bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə müraciət edir.

İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertin bilik səviyyəsinin müəyyən edilməsi Komitə tərəfindən müsabiqə üsulu ilə həyata keçirilir.

Qeyd olunanlara əsasən, Komitə informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertizanı keçirmək istəyən şəxslərə *(bundan sonra- namizəd)* ixtisas attestatının verilməsi üçün müsabiqəyə sənəd qəbulu elan edir.

Müsabiqə 2 mərhələdən ,test imtahanından və müsahibədən ibarət olacaq. Test imtahanının keçirildiyi vaxt və yer barədə məlumat 3 (üç) gün əvvəl Komitənin rəsmi internet informasiya ehtiyatında yerləşdiriləcək və namizədlərə sifarişli poçt bildirişi və ya elektron qaydada göndəriləcək.

Müsabiqə proqramı Komitənin rəsmi saytında yerləşdirilmişdir. (Keçid 2.)

**<u>Müsabiqədə iştirak üçün şərtlər:</u>**

*- Namizədin işlədiyi hüquqi şəxs (ekspert təşkilatı) bu barədə Komitəyə müraciət edir.*

*- Namizəd pedaqogika, psixologiya və ya uşaq psixiatriyası sahəsində ali təhsilə malik olan şəxs olmalıdır.*

*- Həyat və sağlamlıq əleyhinə ağır və xüsusilə ağır cinayətlər, yaxud şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri və ya ictimai mənəviyyat əleyhinə cinayətlər törətməyə görə məhkum edilmiş şəxslər müsabiqədə iştirak edə bilməzlər.*

*- İxtisas attestatının verilməsi üçün müraciət edən ekspert təşkilatı yuxarıda qeyd olunmuş tələblərə cavab verən ən azı 3 (üç) ekspert ştatına malik olmalıdır.*

*- Ekspert təşkilatı Qaydaların 1 nömrəli əlavəsində (Keçid 3.) göstərilən müraciət formasını doldurmaqla və aşağıda göstərilən sənədləri əlavə etməklə, elektron qaydada ( z.info-qanun@family.gov.az elektron poçt ünvanına) və ya birbaşa müraciət etməlidir. Elektron qaydada müraciət edildikdə, müraciət forması ekspert təşkilatının rəhbərinin və ya nümayəndəsinin elektron imzası ilə təsdiq edilir.*

**Müraciətə əlavə edilməli sənədlər:**

1. *ekspert təşkilatının vəsatəti;*
2. *ekspertizanı keçirmək istəyən şəxsin ərizəsi*
3. *ekspertizanı keçirmək istəyən şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti;*
4. *ekspert təşkilatı ilə namizəd arasında bağlanılmış əmək müqaviləsinə dair Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sisteminin "əmək müqaviləsi bildirişi" altsistemindən çıxarış;*
5. *müvafiq sahə üzrə ali təhsil haqqında diplomun surəti;*
6. *ixtisas üzrə iş stajını təsdiq edən əmək kitabçasının surəti;*
7. *məhkumluq barədə arayış;*
8. *ekspert təşkilatının VÖEN-i.*

Əlavə məlumat üçün "Uşaqların zərərli informasiyadan qorunması haqqında Qanunvericilik" ( 4-cü keçid) ilə tanış ola bilərsiniz.

**Ünvan:** Bakı şəhəri, Ü.Hacıbəyli 80, Hökumət Evi, IV qapı

**Əlaqə telefonu:** (012) 598-27-12